**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**RUFİZ RƏHİM OĞLU QONAQOV**

# XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARI VƏ ONUN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət " kafedrasında yerinə yetirilmişdir

*Elmi rəhbər:* **Ə.M.Həsənov**
tarix üzrə elmlər doktoru, professor

*Rəsmi opponentlər:* **R.R.Mirzəzadə**
fəlsəfə üzrə elmlər doktoru, professor

**R.Z.Rəhimli**
Siyasi elmlər üzrə fəlsəfə doktoru,dosent

*Aparıcı təşkilat:* Azərbaycan Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrası

Müdafiə "____" ____________ 2018-ci il tarixində saat ____-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəh., M. Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"__________ 2018-cü il tarixində göndərilmişdir.

**FD 02.101 Dissertasiya**
**Şurasının elmi katibi,**
**f.ü.f.d, dosent** **S. İ. Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı**: XX əsrin sonu – XXI əsrin birinci rübündə Xəzər hövzəsinin  enerji potensialından istifadə ətrafinda yaranan çoxtərəfli münasibətlər, həmçinin, enerji resursları ilə zəngin ölkələr arasında imzalanan uzunmüddətli enerji müqavilələri bu istiqamətdə beynəlxalq münasibətlərin davamlı olaraq tədqiqinin aktuallığını zəruri edir.Bidiyimiz kimi "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın beynəlxalq rolu günbəgün artmağa başladı.Ümummilli lider Heydər Əliyev demişdır: "Biz artıq müstəqil bir dövlət kimi öz sərvətlərimizin, öz taleyimizin sahibiyik. Bunlara əsasən biz Azərbaycanın ən böyük sərvətlərindən biri olan neftdən istifadə məsələsini özümüz həll edirik".[1]

Tədqiqat mövzusunun aktuallığına dəlalət edən mühüm məqamlardan biri ondan ibarətdir ki, müasir dünya siyasətində, dövlətlərarası münasibətlərdə enerji amilinin roluna xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında məhz Azərbaycanın enerji mənbələri məsələsinə toxunaraq söyləmişdir: "Enerji təhlükəsizliyini ölkənin milli təhlükəsizliyindən ayırmaq olmaz. Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə öz vacib rolunu oynayır. İndi isə irimiqyaslı qaz təchizatı layihəsinin həyata keçirilməsinə gəldikdə, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da öz vacib rolunu oynayacaq".[2]

Bu baxımdan tədqiq olunan mövzunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

1. Hər şeydən öncə, enerji resursları uğrunda mübarizə fonunda iqtisadi və siyasi maraqların təmin olunması məğlubiyyətsiz xarici siyasət strategiyasının işlənib hazırlanmasını və dəqiqliklə həyata keçirilməsini tələb edir.

2. Xəzər hövzəsi dövlətlərinin fəaliyyəti regionun enerji resurslarına nəzarət uğrunda kəskin mübarizə üzərində qurulmaqla, geosiyasi riskləri artırmış olurlar. Bəzi dövlətlər hələ də xarici siyasi fəaliyyətlərini həyata

---

[1] Azərbaycan 1995: Qarşıdurmadan Milli Həmrəyliyə, birinci hissə - Bakı, 2005. 456 səhifə, səh. 103.

[2] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru" OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"dakı çıxışı//https:www. precident.az/artikles/22814

keçirən zaman bu məqamları nəzərə almaqda, regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında birmənalı deyildir.

3. Region dövlətləri maksimum iqtisadi səmərə əldə etməyə çalışırlar və bunun üçün də ayrıca strategiya müəyyənləşdirirlər. Bu mənada, Azərbaycan Respublikasını xüsusi qeyd etmək lazımdır. Belə ki, yerləşdiyi regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına ən ciddi töhfəni verən məhz Azərbaycan dövlətidir.

4. Enerji siyasəti artıq yalnız iqtisadi fenomen kimi nəzərdən keçirilmir. Bu müstəvidə siyasi komponentlərin xüsusi çəkisi özünü daha qabarıq biruzə verməkdədir. Enerji ehtiyatları Xəzər hövzəsi dövlətlərini Beynəlxalq münasibətlərin vacib aktoruna çevirməkdədir.

Buna görə də, məsələyə həm də bu kontekstdən yanaşılması elmi tədqiqatların səciyyəvi tərəfi və yüksək aktuallığına dəlalət edən amil kimi qiymətləndirilməlidir. Xəzər dənizinin beynəlxalq-hüquqi statusunun müəyyənləşdirilməsi problemi özündə yalnız yeni beynəlxalq-siyasi reallığı əks etdirmir. Bu, həmçinin, Xəzəryanı dövlətlərin fəaliyyətlərinin və ya davranışlarının hüquqi əsaslarına aid olan praktiki məsələlərin həlli ilə bağlıdır. Xəzər dənizinin yeni statusunun müəyyənləşdirilməsi digər region ölkələri kimi, Azərbaycan dövlətinin də geosiyasi vəziyyətinə və siyasi-iqtisadi inkişaf maraqlarına ciddi təsir etmək gücündədir. Akademik R.Ə.Mehdiyevin fikrincə: "Siyasi və maliyyə xarakterli problemlərlə əlaqədar qeyri-müəyyənliklər Avropa şirkətlərinin yeni resurslara çıxış əldə etməsi üçün konkret qərarlar qəbul olunmasını çətinləşdirir".[1]

«Mütəxəssislərin hesablamalarına görə, Xəzər dənizi dünyanın ən zəngin karbohidrogen ehtiyatlarına malik olan bölgələrindən biridir. Bu faktor bölgənin ümumi geosiyasi və geoiqtisadi ab-havası, dünya ölkələrinin bölgəyə can atması və s. transmilli proseslərlə yanaşı, həm də Xəzərətrafı ölkələrin bir-birilə regional münasibətlərinə, bütövlükdə xarici

[1] Mehdiyev R.Ə. Dünya nizamından nizamsızlığa doğru. Avropa strukturlarının degradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti: Bakı, 2015, Şərq – Qərb nəşriyyatı, 200 səh.

siyasətlərinə, daxili ictimai-siyasi vəziyyətinə və regional dövlətlərarası münasibətlərin xarakterinə də ciddi təsir göstərmişdir”.[1]

Göründüyü kimi, beynəlxalq enerji siyasətinin və enerji diplomatiyasının Xəzər hövzəsi regionu timsalında tədqiq edilməsi Azərbaycan siyasi elmi üçün xüsusi elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edir ki,bu da seçilmiş dissertasiya mövzusunun aktuallığını və ölkəmiz üçün xüsusi ilə vacib olduğunu göstərir.

**Problemin işlənmə dərəcəsi.** Ümumiyyətlə, Xəzər hövzəsi regionunda cərəyan edən geosiyasi və geoiqtisadi proseslər, enerji təhlükəsizliyi problemi son illərin beynəlxalq siyasi araşdırmalarının ən vacib məsələlərindən birinə çevrilmişdir. Hazırkı mərhələdə bu problemlər ətrafında kifayət qədər intensiv elmi-tədqiqat işləri həyata keçirilir, monoqrafiyalar çap olunur, geniş müzakirələr aparılır. Xəzərin enerji ehtiyatları problemi ətrafında elmi tədqiqatların genişlənməsi həm Xəzəryanı dövlətlərdə, həm də Qərb ölkələrində aşkar müşahidə olunmaqdadır.

Azərbaycan Respublikasında Xəzər regionunda cərəyan edən müxtəlif xarakterli proseslər, həmçinin enerji məsələləri ətrafında dərin elmi-tədqiqat işlərinin aparılması elmi dairələrin diqqət mərkəzindədir. Qarşıya qoyulan vəzifəni yerinə yetirmək və irəli sürülən yanaşmaları əsaslandırmaq üçün mövzu ilə bağlı xarici və Azərbaycan alimlərinin əsərlərindən, dərs vəsaitlərindən aparıcı, nüfuzlu siyasi jurnallarda nəşr olunmuş məqalələrdən, həmçinin digər resurslardan istifadə edilmişdir. Bu baxımdan ilk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəllifi olduğu “Azərbaycanın Xəzər nefti” kitabı xüsusi maraq doğurur. Kitabda Xəzər regionunun tarixən siyasi və iqtisadi inkişafı, eləcə də Azərbaycanın Xəzəryanı hissəsinin tarixi inkişafı tədqiq edilir, böyük sayda arxiv və informativ materiallar əsasında Xəzər dənizinin statusunun müəyyən edilməsi ən aktual problemlərdən biri kimi nəzərdən keçirilir.[2]

Azərbaycan tədqiqatçılarından bir qrupu Azərbaycan neft-qaz ehtiyatları və xarici siyasəti, Xəzəryanı ölkələrin qarşılıqlı münasibətlərinə beynəl-

---

[1] Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti, Bakı, Zərdabi LTD. MMC. 2016, 296 səh.

[2] Алиев И. Г. Каспийская нефть Азербайджана. М.: Известия, 2003. -712 с.

xalq və regional təhlükəsizlik kontekstində yanaşmışlar. Belə müəlliflərdən R.Mehdiyev, Ə.Həsənov, N.Məmmədov, H.Paşayev, H.Məmmədov E.Nəsirov, E.Əhmədov, P.Darabadi, E.Abdullayev və b. müvafiq istiqamətdə ciddi elmi-tədqiqat işləri həyata keçirmişlər, monoqrafiyalar, elmi araşdırmalar nəşr etdirmişlər.[1] Akademik R.Ə.Mehdiyev **"Azərbaycan: Qloballaşma dövrünün tələbləri", "Demokratiya yolunda: irs haqqında düşünərkən", "Dünya nizamından nizamsızlığa doğru. Avropa strukturlarının degradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti'əsərlərində** regionda, eləcə də dünyada gedən qlobal siyasi-ideoloji maraqların xüsusiyyətlərini, təsirlərini geniş təhlil etmiş, həmçinin, müasir dünya reallıqlarını kompleks əks etdirən digər əsərləri ilə bu istiqamətdə araşdırmaların aparılması metodologiyasını təqdim etmişdir. Professor Ə. M. Həsənovun "Azərbaycan geosiyasəti" adlı əsərində, eləcə də Bakıda və Türkiyədə çapdan çıxmış digər əsərləri və çoxsaylı məqalələrində Xəzər hövzəsinə dünya gücləri və regional dövlətlərin geoiqtisadi və geosiyasi maraqları, Xəzərin neft-qaz ehtiyatlarının Avropa və dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu, Xəzərin hüquqi statusu məsələsində Azərbaycanın mövqeyi, Azərbaycanın neft-qaz ehtiyatlarının istehsalı və ixracı zamanı üzləşdiyi problemlər və onların həlli yolları kimi geniş əhatəli məsələlər təhlil olunmuşdur. Eləcə də bu əsərlərdə geosiyasətin enerji siyasəti zəminində elmi tədqiqi məsələlərinə geniş yer ayırmış, nəzəri və praktiki əhəmiyyət kəsb edən konseptual müddəalar irəli sürmüş, müasir dünya siyasətində enerji potensialının yaratdığı yeni

---

[1] Abdullayev E. Azərbaycan neft sənayesinin inkişafında xarici kapital, Qanun jurnalı, 1999,№ 2, 25-27 səh. 752 səh; Həsənov Ə.M.Xəzər hövzəsinin geosiyasi xarakteristikası və müasir dünya siyasətindəki rolu// Geostrategiya. 2016, may-iyun, N.3 (33), səh. 3-7; Məmmədov N. Qlobal siyasət: təhdidlər, çağırışlar, ümidlər. Məmmədov N. Baş redaktorluğu və rəhbərliyi ilə çap edilmiş. B, 2013, Qanun nəşr, 320 səh;Nəsibov E. ABŞ-ın Cənubi Qafqaz Siyasəti və Azərbaycan Respublikası // Dirçəliş XXI əsr. 2005-2006 dekabr-yanvar, № 94-95, 166-173 səh; Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər, B, 2010, Çinar-Çap, 568 səh; Darabadi P. Геоистория Каспийского региона и геополитика современности. Баку, Элм, 2002, 192 стр.

dövlətlərarası münasibətlərin geniş müqayisəli təsviri verilmişdir.[1] Azərbaycan tədqiqatçısı professor P.Darabadinin "Xəzər regionunun geotarixi və müasir dövrün geosiyasəti" əsərində Xəzər regionunu dünya tarixi və müasir dövrdə geosiyasi qarşıdurmanın mərkəzlərindən biri kimi nəzərdən keçirilərək qədim dövrdən bu günə qədər Xəzər ətrafı geotarixi prosesləri təhlil etmiş, müasir geosiyasi münasibətlər sistemində Xəzər regionunu, geosiyasi təcrübəni və perspektivləri tədqiqata cəlb etmişdir.

Professor E. Nəsirov "Azərbaycanın neft və qaz sənayesi, nailiyyətlər və perspektivlər", "Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti" adlı məqalələrində Azərbaycanın neft-qaz ixracının şaxələndirilməsi siyasəti sayəsində dünyanın ən aparıcı transmilli korporasiyaları ilə qarşılıqlı faydalı əməkdaşlığın reallaşması məsələlərini ətraflı təhlil etmişdir. Bundan başqa, Xəzər dənizi hövzəsinin dünya enerji balansında əhəmiyyəti, regionunun geosiyasi problemlərini MDB ölkələri alimlərindən Барабанов О., Бурк А., Медведев А., Орлов А., Кочетов Е., Неклесса А., Дергачев В., Нурышев Г., Войтоловский Г., Косолапов Н., Юлдашева Н., Черницына С., Литера Б. Лобжанидзе А. və b., öyrənmiş, problemin siyasi – tarixi kökləri və müasir vəziyyəti haqqında fikirlərini açıqlamışlar.[2]

---

[1] Mehdiyev R. Azərbaycan: "Qloballaşma dövrünün tələbləri"// Bakı: YNE nəşriyyatı, 2005, 264 səh; "Demokratiya yolunda: irs haqqında düşünərkən"//B., Şərq-Qərb nəşr. 2008, 792 səh; Mehdiyev R. "Dünya nizamından nizamsızlığa doğru. Avropa strukturlarının degra-dasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti"// Bakı, 2015, Şərq–Qərb nəşriyyatı, 200 səh; Həsənov Ə. "Xəzər hövzəsinin geosiyasi xarakteristikası və müasir dünya siyasətindəki rolu"//Geostrategiya. 2016, may–iyun, N.3, səh; 3-7; Гасанов А. "Азербайджан несомненный геополитический и геоэконо-мический лидер Южного Кавказа благодаря бассейна Каспийского моря." // Бакуинформ. аз.Новости, 20.11.2016,1 с; Həsənov Ə. "Müasir beynəlxalq münasi-bətlər və Azərbaycanın xarici siyasəti" Bakı, Azərbaycan. 2005, 752 səh; Həsənov Ə. "Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti" //Bakı, Zərdabi LTD. MMC. 2016, 296 səh; Пашаев Х. Манифест одного посла. О том, как начиналось дипломатическая миссия Азербайджана в Америке.// Баку: Развития регионов, 2009, 356 стр; Nəsirov E."Azərbaycanın neft və qaz sənayesi, nailiyyətlər və perspektivlər "//Azərbaycan FOCUS, Bakı, SAM, 2010, 2/2/ səh. 75-85.

[2] Барабанов О. Политика США в центральной Азии и Закавказье южный фланг. СНГ: Центральная Азия Каспий – Кавказ: возможности и вызовы для России, М, 2003, 21 стр; Бурк А. Стратегия США в районе Каспийского моря. Вестник Каспия. 2000, Н2,

Qərb tədqiqatçılarından A. Hyman, G. Kemp, R.Harvey, Jaffe A, Kumiholm B. və b. problemin müxtəlif aspektlərinə həsr olunmuş əsərlərində mövzunun tədqiqinə dair müəyyən müqayisəli mülahizə və fikirlər irəli sürmüşlər.[1]

Bütövlükdə, tədqiq olunan problemlə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, onun müxtəlif aspektləri Azərbaycan və xarici ölkələrin alimləri tərəfindən də tədqiq edilmişdir. Lakin problem təqdim olunan dissertasiya işindəki qoyuluşda sistemli şəkildə araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Xəzəryanı dövlətlərin və Avropanın Xəzər hövzəsinin enerji ehtiyatları ətrafında münasibətləri və bu sahədə həyata keçirdikləri siyasət, predmetini isə həmin münasibətlər ətrafında geosiyasi və beynəlxalq maraqların nizamlanması prosesi, bu prosesdə yaranan maneələr və problemlərin aradan qaldırılmasına yönələn siyasətin xüsusiyyətlərinin elmi-siyası cəhətdən araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin məqsədi Xəzər hövzəsinin enerji ehtiyatları zəminində Xəzəryanı dövlətlərin geosiyasi, iqtisadi maraqlarını sistemli təhlil edərək həmin maraqların Avropanın enerji təhlükəsizliyində rolunun və təsirlərinin siyasi əhəmiyyətini müasir dünya reallıqları baxımından təhlil etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

---

11 стр; Медведеев А. // Как «Газпром» выполняет поручения Госдепа США, журнал Международная жизнь. М., 2008, № 8-9. Орлов А. Персидский залив в Каспийском море// Итоги/ 1997, № 36, стр.11. Войтоловский Г., Косолапов Н. "Особенности геополитической ситуации в Каспийском регионе/М, 1999 год, 41 стр. Черницына С. Проблемы Каспийского региона: региональные и глобальные аспекты. Журнал "Обозреватель-обсервер", Н12, 2014, 100 стр; Литера Б. Нефть и газ в бассейне Каспийского моря: состояние перспективы, журнал Кавказ и Глобализация, 2007, Том ½, с. 32 – 78; Лобжанидзе А. География. 3-е изд. М, 2014, 160 стр. Юлдашева Н. Слишком больно не будет // Деловая неделя. 17 октября, 2014, с.3.

[1] A. Hyman, G. Kemp, R. Harvey Jaffe A. "Central Asia.Kuvait by the Kaspian?" The middle East October, 1994, p.32; Geofrey Kemp and Robert Harvey, Strategic Geography and the Changing Middle East (Washington. DC.Carnegir Endowment for international Peace/ 1997). 135 p; Jaffe A. Manning K. The myth of the Caspian "Great Game" the real geopolitics of energy//Survival. London, 1998 – 1999. N4;Kumiholm B. The geopolitics of the Caspian Basin//Middle East journal. Washinqton, 2000, N4.

- Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının geoiqtisadi xarakteristikası, real ehtiyatları və perspektivdə əldə ediləcək resurslar haqqında siyasi - nəzəri baxışların öyrənilməsi;

- Xəzərin hüquqi statusuna dair müasir geosiyasi yanaşmaların öyrənilməsi, Azərbaycanın prinsipial mövqeyinin rəsmi sənədlər əsasında müəyyən edilməsi;

- Xəzər hövzəsinin mövcud neft-qaz kəmərlərinin və müasir Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasətinin tədqiq olunması;

- Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunun elmi dəlil və faktlarla göstərilməsi;

- Xəzər hövzəsinin təbii ehtiyatları və Azərbaycanın enerji strategiyasının bu günü və perspektivi haqqında nəzəri və praktiki tövsiyələrin irəli sürülməsi.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri bazasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın neft-qaz ehtiyatları, Xəzərin statusu, ixrac boru neft kəmərləri və bu sahədəki şaxələndirmə siyasəti, neft-qaz kəmərləri və geosiyasət məsələləri ilə bağlı çıxış və nitqlərində, məruzələrində irəli sürülmüş dəyərli fikirlər və konseptual müddəalar, eləcə də bu sahədə işlənilmiş fundamental əsərlər təşkil edir.

Aparılan tədqiqatda metodoloji əsaslar kimi sistemli yanaşma tətbiq olunmaqla, analiz, sintez, induksiya və deduksiya kimi ümumməntiqi metodlarla yanaşı, institusional, müqayisəli politoloji təhlil, tarixi metodlar, kontent-analiz, ekspert qiymətləndirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işində Azərbaycan Respublikasının Konstitusiyası, müvafiq Qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, digər Xəzər hövzəsi dövlətlərinin rəsmi sənədləri aparılan elmi tədqiqatın istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətli və dəyərli mənbələr kimi istifadə olunmuşdur.

Tədqiqat zamanı Xəzər Strateji Mərkəzlərinin ekspert rəylərinə, beynəlxalq hesabatların açıqlamalarına, KİV materiallarına, internet resurslarına da mənbə kimi istinad edilmişdir.

Mövzunun öyrənilməsində həmçinin, siyasi, hüquqi və fəlsəfi ensiklopediyalara, lüğət və sözlüklərə, eləcə də vətəndaş cəmiyyətinin qurumlarının Xəzər və onun enerji resursları ilə bağlı keçirdikləri elmi konfransların materiallarına, statistik məlumatlara müraciət olunmuşdur. Bundan başqa, BP-nin araşdırmaları, ekspert təhlilləri, Beynəlxalq Enerji Agentliyinin, OPEK-in beynəlxalq araşdırma mərkəzlərinin məlumatları, Xəzəryanı ölkələrinin müvafiq dövlət qurumlarının statistik və analitik sənədləri də işin mənbəşünaslıq bazasını təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müasir Azərbaycanın geosiyası və beynəlxalq maraqlarında Xəzər hövzəsi təbii ehtiyatlarının yerinin müəyyən edilməsi, Xəzəryanı ölkələrin enerji siyasəti və onun Avropanın enerji təhlükəsizliyində rolunun öyrənilməsi problemlərinə Azərbaycan siyasi elmində ilk dəfə olaraq dissertasiya səviyyəsində müraciət olunmuşdur. İlk dəfə politoloji aspektdən mövzuya dair müxtəlif yanaşmalar və baxışlar elmi-nəzəri və metodoloji istiqamətdə müqayisəli təhlil olunmuş, problem beynəlxalq münasibətlər kontekstində araşdırılmışdır. Dissertasiya işinin elmi yeniliyi daha konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- elmi işdə ilk dəfə olaraq, Xəzərin enerji ehtiyatlarının mənimsənilməsi perspektivlərinə təsir edən təkcə iqtisadi deyil, həm də siyasi və hüquqi amillərin təhlilinə cəhd edilmişdir;
- Xəzərin hüquqi statusuna dair müasir geosiyasi yanaşmalar əsasında Azərbaycanın prinsipial mövqeyinin müəyyənləşdirilməsinə cəhd edilmişdir;
- ilk dəfə olaraq, Xəzər hövzəsi enerji ehtiyatlarının müasir beynəlxalq münasibətlər və qarşılıqlı iqtisadi əməkdaşlıq sistemində oynadığı rol əsasən siyasi kontekstdə təhlil edilmişdir;
- Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu elmi dəlil və faktlarla daha dəqiq əsaslandırılmışdır;
- Azərbaycan siyasətşünaslıq elmində Xəzər hövzəsi təbii ehtiyatlarının geoiqtisadi rolu regiondakı və dünyadakı geosiyasi proseslərlə qarşılıqlı əlaqədə kompleks təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti onunla əsaslandırıla bilər ki, iş Xəzər hövzəsi regionunda cərəyan edən geosiyasi və geoiqtisadi proseslərin mahiyyətinin dərk edilməsinə

ciddi töhfə verir. Bundan başqa, Azərbaycan Respublikasının enerji siyasətinin prioritetləri və prinsipləri, Xəzərin enerji resurslarının dünya enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı rol haqqında daha dolğun təsəvvürlərin formalaşdırılması baxımından da, tədqiqat vacib nəzəri əhəmiyyət kəsb edir və bu sahədə gələcək tədqiqatların aparılmasında istifadə oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas müddəaları və nəticələrindən Azərbaycanın Xəzər dənizi hövzəsində geoiqtisadi və geosiyasi vəziyyətin öyrənilməsi sahəsində, bu istiqamətdə səmərəli siyasətin yürüdülməsi zamanı nəzərə alına bilər. Tədqiqat işi Xəzər regionunun problemləri, Xəzərin hüquqi statusu ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi və digər müvafiq dövlət strukturları üçün, həmçinin maarifləndirici material kimi faydalı olar. Dissertasiyanın materiallarından ali məktəblərdə geosiyasətə, beynəlxalq münasibətlərə və beynəlxalq iqtisadi fəaliyyətlə bağlı mühazirə və elmi seminarlarda, tədqiqat işlərində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər" və "Tarix" kafedralarının birgə iclasında müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür.Dissertasiyanın əsas müddəaları müəllifin Azərbaycanda və xaricdə nüfuzlu elmi məcmuələrdə nəşr olunmuş məqalələrində, eləcə də beynəlxalq və respublika səviyyəli konfrans materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu:** Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi açıqlanır, tədqiqatın obyekti və predmeti göstərilir, məqsəd və vəzifələri qeyd olunur, tədqiqatın elmi yeniliyi verilir, metodoloji əsasları müəyyənləşdirilir, nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Birinci fəsil – **"Xəzər hövzəsinin karbohidrogen ehtiyatları və Azərbaycanın müasir enerji siyasəti"** adlanır. Bu fəslin **"Xəzər hövzə-**

**sinin geosiyasi və iqtisadi xarakteristikası"** adlı birinci yarımfəslində müasir qloballaşan dünyada ölkələrin öz həyati tələblərini təmin etməsində enerji daşıyıcılarının, xüsusən neft və neft məhsullarının əldə edilməsi əsas və çox mühüm yer alır. Yer üzünün enerji ehtiyatları, eləcə də bu ehtiyatların olduğu məkan transmilli əhəmiyyət daşıyır, dünyanın inkişaf etmiş ölkələri, həmçinin enerjiyə sahib olan dövlətlərin milli maraqları kontekstindən strateji mahiyyətə malik olur.

Tədqiq edilir ki, keçmiş SSRİ-nin süqutu, soyuq müharibənin bitməsindən sonra Xəzər regionunda beş dövlətin – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranın neft və qaz hasil etmək imkanları artdı. Xəzərətrafı dövlətlərin rəhbərləri də enerji daşıyıcılarının iqtisadi dəyərini dərindən dərk etdilər. Lakin o zaman ehtimal olunmurdu ki, gələcəkdə Xəzər hövzəsinin neft və qaz ehtiyatları Yaxın Şərqdəki enerji mənbələri yataqları ilə rəqabət gücünə malik olacaqdır. Tədqiqatçı düzgün olaraq bu yarımfəsildə hövzənin geosiyasi xarakteristikasını, iqtisadi resursları və bu iqtisadi resurslar ətrafında cəmlənən maraqları, Xəzər hövzəsinin enerji mənbələrinin müasir beynəlxalq münasibətlər sistemində oynadığı rolu sistemli təhlil edir. Xəzər hövzəsi ölkələrinin enerji mənbələrinin beynəlxalq münasibətlər sistemində oynadığı rolun müqayisəli, tarixi, institusional metodlarla təhlilini aparmışdır. Göstərilir ki, Azərbaycanın əsas prinsipləri Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti Xəzər hövzəsi dövlətləri ilə bərabər beynəlxalq aləmdə də yeni münasibətlərin yaranıb möhkəmlənməsini əsas götürür. Azərbaycanın enerji siyasətinin strateji hədəflərinə gəldikdə bu, Avropanın enerji resursları, bu resursların Xəzəryanı dövlətlərin geosiyasi maraqları çərçivəsində siyasi və iqtisadi baxımdan əlaqələndirlməsi prinsiplərinə əsaslanır.

Birinci fəslin **"Xəzərin beynəlxalq hüquqi statusuna dair müasir geosiyasi yanaşmalar" adlı ikinci yarımfəslində araşdırılır ki,** dünya iqtisadiyyatının inkişafında neft mühüm enerji resursu olaraq ən strateji məhsullardan biridir. Neft sərvətinə malik olan ölkələr dünya enerji bazarında mühüm rola malikdirlər. Tarixi faktlar da göstərir ki, neft və digər təbii ehtiyatları ilə zəngin olan Xəzər hövzəsi maraq və mənafelərin çarpazlaşdığı nöqtədən savayı, həm də ölkələr üçün gəlir mənbəyi, təbii sərvətdir. Azərbaycan neft sənayesi 150 ildən çox tarixi əhatə edir və bu illərdə

böyük inkişaf yolu keçmişdir. Ulu Öndər Heydər Əliyevin sistemli, qlobal və genişmiqyaslı, çoxşaxəli milli maraqlara xidmət edən enerji siyasəti nəticəsində ölkəmizdə neft-qaz sənayesi də inkişaf etmişdir. Azərbaycan Respublikasında təbii ehtiyatlar, xüsusilə də karbohidrogen ehtiyatları üzərində mülkiyyət hüququ dövlətə məxsusdur. Tədqiqatın mühüm əhəmiyyətli tərəflərindən biri budur ki, yaranan dövlətlərarası maraqların şaxələndiyi bu regionda həssas bir nöqtə olan Xəzər dənizi karbohidrogen ehtiyatları zəminində yaranan dövlətlərarası münasibət və strateji hədəflərin müəyyənləşməsi məsələləri iddiaçını dərindən düşündürmüş və bu aspektdə müqayisəli təhlillərini genişləndirərək tədqiqatın sistemli mexanizmini qurmuşdur. Beləliklə, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən bu gün davam etdirilən uğurlu neft siyasəti strategiyası və həmin strategiyanın ideoloji prioritetləri işin təhlili peosesində qarşılıqlı şəkildə əlaqələndirilmişdir.

Birinci fəslin **"Xəzər hövzəsi enerji mənbələrinin müasir beynəlxalq münasibətlər sistemində oynadığı rol" adlı üçüncü yarımfəslində** Azərbaycanın geosiyasi əhəmiyyəti məhz onun strateji mövqeyi ilə bağlılığı təhlil edilir. Azərbaycan Cənubi Qafqazın yeganə dövlətidir ki, İranla, Rusiya ilə həmsərhəd olub, Xəzər dənizinə və Mərkəzi Asiya regionuna çıxışları var. Bu ölkə qonşu və ona həmsərhəd olan Gürcüstan vasitəsilə Qara dənizə də çıxa bilir. Azərbaycandan ənənəvi və yeni kommunikasiya, nəqliyyat, enerji dəhlizləri keçir ki, onlar Avrasiya regionunda Şərqi və Qərbi, Şimalı və Cənubu bir-birilə bağlayır. Strateji cəhətdən mühüm enerji layihələrinin reallaşdırılması nəticəsində bu ölkə Avropanın enerji təhlükəsizliyi arxitekturasında əsaslı yer tutur.

Xəzər regionu yaxın və uzaq qonşu ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında həlledici amilə çevrilmiş və Xəzərin beynəlxalq əhəmiyyəti çox artmışdır. Belə ki, bu gün də Xəzər hövzəsində geostrateji məqsəd güdən dünyanın böyük gücləri geoiqtisadi maraqlar uğrunda mübarizə aparırlar. Xəzərin neft-qaz ehtiyatlarının əhəmiyyəti ondadır ki, bu resurslar XXI əsrdə qlobal iqtisadiyyatın tələbatlarının öyrənilməsində mühüm rol oynayır və oynayacaqdır. Buna görə də, dünya gücləri Xəzərin geosiyasi cəhətdən bölünməsində maraqlıdırlar. Araşdırma zamanı tarixi

tədqiqat metodları zamanı Xəzərdə kifayət qədər neft və qaz ehtiyatları olduğu diqqətə çatdırılır. Hələ sovet dövründə kəşfiyyat nəticəsində onun böyük həcmdə olması da aşkar olunmuşdur. Keçmiş SSRİ Xəzərdə neft-qaz ehtiyatlarını strateji ehtiyat zonası kimi müəyyənləşdirmiş və onu lazımi qədər çıxarırdı. Xəzərdən həm də neftin çıxarılması o qədər də asan deyildi. Bunun bir neçə səbəblərini göstərirlər. Tədqiqatda bildirilir ki: birincisi, nefti çıxartmaq çətindir, dünya bazarına qədər onu xammal və emal məhsulu kimi çatdırmaq da lazım idi. Bu isə ən varlı ölkələr üçün də nəhəng infrastruktur məsrəfidir. İkincisi, Xəzərdən neftin əldə olunması da o qədər sadə məsələ deyildir. Bu isə həmin regionda yüksək təzyiq və temperaturların materiallara və texnologiyalara ciddi tələblər qoyduğu böyük dərinliklərə aid idi. Üçüncüsü, Xəzər qapalı su hövzəsi (göl) kimi ekoloji cəhətdən zəif yerdir, onun sularındakı müxtəlif balıq və heyvan növləri ancaq ona xasdır-endemikdir və yer kürəsinin heç bir yerində təsadüf olunmur. Məhz bu baxışlar da Xəzərin hüquqi statusunun müəyyən edilməsi zamanı bu və ya digər formada danışıqlar predmetində yer alır.

Dünyanın əksər geosiyasətçiləri Xəzər hövzəsi regionunu planetin ən əhəmiyyətli bölgələrindən biri kimi dəyərləndirirlər. Hətta bəziləri bugünkü enerji ehtiyatları uğrunda gedən mübarizələri "soyuq" müharibəni əvəz edən "istilik" müharibəsi kimi səciyyələndirirlər. Xəzər hövzəsinə dünyanın transmilli şirkətləri neftin dünya qiymətlərinin də yüksək olduğu dövrdə daxil oldular və bununla beynəlxalq münasibətlər sistemində Xəzərin rolu artdı.

Tədqiqatda o da diqqətə çatdırılır ki, dünya siyasətində beynəlxalq münasibətlərdə önəmli yer tutan Xəzər hövzəsi ölkələri də beynəlxalq siyasi hədəflərdə "oyunlar"a başlamalı olublar ki, bu: a) Xəzərin real geoiqtisadi qiymətləri; b) Xəzərin boru kəməri marşrutu sahəsi; c) Xəzərin hüquqi statusu və bölgüsü; d) Alternativ boru kəmərləri və s.ilə bağlıdır. Tədqiqatda bu strateji bölgənin Qərbə inteqrasiyası üçün əsaslı, kompleks siyasi və iqtisadi tədbirlər görülməsinin zəruri əhəmiyyət daşıdığı müqayisəli metodlarla sübuta yetirilir.

İkinci fəsil - **"Xəzər hövzəsinin neft-qaz kəmərləri və Azərbaycanın**

**enerji ixracının şaxələndirilməsi siyasəti“** adlanır. Bu fəslin ”**Xəzər hövzəsinin mövcud neft-qaz kəmərləri“** adlı birinci yarımfəslində müəllif problemə tarixi metodlarla yanaşmış, müqayisələr aparmışdır. Qeyd edilmişdir ki, "Bakı neft cəmiyyəti" Bakıda 1874-cü ildə təsis olunub. 1876-cı ildən Nobel qardaşları Bakıda ilk neft şirkəti qururlar. 1878-ci ildə Balaxanıda Bakı neftayırma zavodunadək 12 km uzunluğunda olan Rusiyada da ilk olan neft kəməri tikilir. 1898-ci ildə isə bu kəmərin uzunluğu 230 km.-ə çatır. Hələ 1880-ci ildən D.Mendeleyev Bakı neftinin dünyaya çıxarılması məqsədi ilə Bakı-Batum neft kəmərinin çəkilməsi fikrini söyləyirdi.[1] Xəzər hövzəsinin neft-qaz mənbələri daim dünya siyasətində və iqtisadiyyatında mühüm rol oynamışdır. Bu baxımdan da müasir qloballaşma və inteqrasiya dövründə Xəzər, onun enerji ehtiyatlarının rolu daha da artmışdır. Avropanın və regionun enerji təhlükəsizliyində Azərbaycanın yeri və töhfəsi danılmazdır. Tədqiqatda araşdırılır ki, təbii sərvətlər üzərində mülkiyyət hüququ ayrı-ayrı dövlətlərdə müxtəlif şəkildə həll olunur. Bu kimi fərqli münasibət hər şeydən əvvəl, həmin dövlətlərin siyasi-iqtisadi münasibətlərinin hansı prinsiplər əsasında təşəkkül tapması ilə izah olunur. Bir qayda olaraq, təbii sərvətlər üzərində mülkiyyət hüququnun mənsubiyyəti dövlətlərin konstitusiyalarında təsbit olunur. Dissertasiyanın ən önəmli cəhətlərindən biri də budur ki, Xəzər regionunda olan karbohidrogen ehtiyatları məsələləri ətrafında yaranan dövlətlərarası münasibətlərə də tədqiqatçı siyası təhlil prizmasından baxmış, ölkənin bu istiqamətdə olan maraqlarını çox həssaslıqla analiz və təhlil etmişdir. Qətiyyətlə demək olar ki, iddiaçı işə yanaşması zamanı SSRİ-nin dağılması dövrünü də diqqətdən qaçırmamış və bu regionda yaranan münasibətlərin postsovet ölkələri münasibətləri zəminindən də təhlilini verməyə çalışmışdır.Bu yarımfəsildə Azərbaycanın Xəzər hövzəsindəki enerji resursları və bu resurslar ətrafında gerçəkləşən transmilli neft-qaz kəmərləri layihələri və bu layihələrin enerji ixracatı siyasətində aparıcı rolu, həmçinin Avropanın enerji təhlükəsizliyinə təsirləri əsaslandırılır. Bu yarımfəsildən aydın olur ki, regionda Avropa ölkələrinin iki əsr

[1] Azərbaycan Neft Strategiyası haqqında ümumi məlumat// QALEREYA, 2012, 21 oktyabr, səh. 10-28

əvvəl maraqları daxilində olan Azərbaycan bu gün də həmin maraqların həssas nöqtəsindədir.

İkinci fəslin – **"Xəzər hövzəsinin perspektiv neft-qaz kəmərləri və Azərbaycanın enerji ixracının şaxələndirilməsi siyasəti"** adlı ikinci yarımfəslində müasir Azərbaycanın unikal strateji mövqeyi, böyük enerji ehtiyatlarının mövcudluğu, neft-qaz diplomatiyasının prioritetləri araşdırılır. Azərbaycanın ixrac siyasətində əsas vəzifə davamlı iqtisadi rifahın və sosial inkişafın təmin edilməsi, həmçinin respublikanın xarici strategiyasının və milli iqtisadi təhlükəsizliyinin maddi təməlinin möhkəmləndirilməsi məqsədidir. Ölkədə enerji ixrac strategiyasının həyata keçirilməsində karbohidrogen, eləcə də qeyri-karbohidrogen ehtiyatlarının ixracının optimal şəkildə balanslaşdırılması vacib əhəmiyyətlidir. Akademik R.Ə.Mehdiyevin təhlili ilə problemə yanaşsaq, aydın olur ki: "Planetimizdə bərpa olunmayan ucuz təbii ehtiyatlar, ən əvvəl enerji ehtiyatları dövrü artıq başa çatmışdır. Müasir qlobal təsərrüfatçılıq sistemi məhz ucuz neft əsasında inkişaf etmişdir. Mütəxəssislərin çoxu neftin bahalaşması və ifrat bahalaşması dövrünün başlanmasından danışır. Qarşıdakı qlobal sistem böhran şəraitində neftin qiyməti get-gedə daha çox təkcə iqtisadi amillərlə deyil, həm də siyasi və geosiyasi amillərlə müəyyən ediləcəkdir".[1]

Göründüyü kimi, regionun geosiyasi vəziyyəti, hövzənin zəngin neft-qaz ehtiyatları onu yalnız regional geosiyasi faktorların deyil, ondan çox uzaqda yerləşən "oyunçuların" da maraq obyektinə çevirmişdir. Şübhəsiz ki, Xəzər hövzəsinin fəal aktorları arasında artıq müstəqil olan dövlətlər - Azərbaycan, Qazaxıstan və Türkmənistan da aparıcı yer tuturlar. Həmçinin, tədqiqatda Xəzərin hüquqi statusu məsələsində Xəzəryanı dövlətlərin münasibətlərinə təsir edən, eyni zamanda beynəlxalq ictimaiyyətin, BMT-nin, transmilli təşkilatların da maraq və mənafeləri baxımından dissertasiyanın təhlilində müqayisəli və tarixi yanaşma metodları tətbiq edilmişdir.Xəzər ətrafında ölkələrin inkişaf dinamikasında həlledici rol oynayan Şərq enerji bazarlarının cəlbedici olan marşrutlar şəbəkəsinin qurulması və Xəzərin neft-qaz ehtiyatlarının dünya enerji bazarında boru kəməri ilə ixracı təkcə kommersiya və siyasi maraqlar sahəsindəki ziddiyyətlərin aradan qaldırıl-

[1] Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən B., Şərq-Qərb nəşr. 2008, 792 səh.

masında deyil, həm də geosiyasi, strateji aspektlərin vəhdəti ilə qarşılıqlı şəkildə verilmişdir. Tədqiqatda göstərilir ki, neft qloballaşan dünya iqtisadiyyatının əvəzsiz nüvəsidir. Çünki bütün dünyada nəqliyyat sistemi daha çox neftlə idarə olunur, əksər cəmiyyətin də kütləvi istehlak vasitələrinin maddi əsasında neft amili dayanır. Deməli, əgər neft tükənərsə, qeyri-neft sektorunun ölkədə paralel inkişafı "bir vəziyyətdən digərinə keçid kimi" müəyyən imkanlar yaradacaq. Ölkənin hərtərəfli inkişaf strategiyası dinamik bir proses kimi artıq dünyada "Azərbaycan modeli" anlayışını da yaratmışdır.

İkinci fəslin **"Azərbaycanın Avropanın enerji təhlükəsizliyndəki rolu"** adlı üçüncü yarımfəslində nəzərə çatdırılır ki, Azərbaycanın neft-qaz ehtiyatı dünya dövlətlərinin, xüsusilə Avropa ölkələrinin daim diqqət mərkəzində olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra Avropa İttifaqı ölkələri ilə ümumi sərhəddinin olmamasına baxmayaraq, yaxın əlaqələr yarada bilib. Azərbaycan 1996-cı ilin aprel ayında Avropa İttifaqı ilə Tərəfdaşlıq və Əməkdaşlıq Müqaviləsi (1999-cu ilin iyulunda qüvvəyə minib) bağladı və 2001-ci ilin yanvarından Avropa Şurasının üzvünə çevrildi. Cənubi Qafqaz ölkələrinin Avropa İttifaqı üçün əhəmiyyətinin nəzərə çarpacaq dərəcədə artması ilə Bakıda da 2003-cü ildə Avropa İttifaqı Xüsusi Nümayəndəliyinin açılması ilə nəticələndi. Müstəqilliyin ilk illərində keçmiş SSRİ-dən ayrılan Azərbaycan ciddi iqtisadi böhranla üzbəüz idi. Məhz bu vaxt enerji mənbələrindən istifadə edilməsi və müasir texnologiyaların tətbiqi üçün xarici ölkələrlə neft-qaz layihələrinin qarşılıqlı işlənməsi bu məsələlərin müəyyən dərəcədə həll olunmasına kömək idi. Həmçinin, Xəzər hövzəsinin hüquqi statusu problemində də Azərbaycan xarici dövlətləri neft-qaz layihələrinin birgə istifadəsinə cəlb etməklə, həmin ölkələrlə qarşılıqlı əməkdaşlığa başladı. Avropa və dünyanın inkişaf edən ölkələri ilə enerji siyasətinin yaradılması məhz həmin dövlətlər tərəfindən Azərbaycanın iqtisadi əməkdaşlıq sisteminə inteqrasiyasına şərait yaratmaqla, həm də beynəlxalq müstəvidə mövqeyinə də dəstək oldu. Azərbaycanın Avropa ölkələri ilə həyata keçirdiyi enerji siyasəti, yeni qlobal layihə olan – "Cənub" qaz dəhlizi"nin icrası respublikamızın enerji strategiyasında mühüm mərhələdir. Bütün bu qeyd olunanlar isə Azərbaycanın enerji siyasətinin, enerji diplomatiyasının istiqamətləri olaraq, ölkənin nəinki regionda

həm də Avropanın enerji təhlükəsizliyində mühüm rolu olduğunun göstəricisidir. 2017-ci il sentyabrın 14-də Bakıda ölkəmiz üçün daha bir tarixi əhəmiyyətli hadisə baş verdi. Belə ki, Azərbaycan 6 ölkənin 11 şirkəti ilə 2050-ci ilə qədər "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni saziş imzaladı ki,bu da ölkəmizin enerji siyasətində vacib yer alan hadisə olaraq tədqiqat predmetində xüsusi yer alır.

**Nəticədə** tədqiq olunan problemlə əlaqədar ümümiləşdirmələr aparılmış elmi-nəzəri, praktiki əhəmiyyət daşıyan təklif və tövsiyələr verilmiş, problemin həlli istiqamətində yeni ideyalar irəli sürülmüşdür. Müəllif belə qənaətə gəlmişdir ki, Azərbaycan Avropa üçün Xəzər hövzəsi dövlətləri sırasında daha vacib əhəmiyyətli ölkə olaraq beynəlxalq enerji siyasəti kursunu mövcud qaydada davam etdirməlidir. Eyni zamanda bütün Xəzər hövzəsi dövlətləri bərabərhüquqlu, qarşılıqlı hörmət və faydalı əməkdaşlıqla tənzimlənən münasibətlərin davamlı xəttini əsas götürərək, Avropanın enerji təhlükəsizliyi məsələləri spektrində birgə beynəlxalq mövqe nümayiş etdirməlidirlər.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap etdirdiyi məqalələrində öz əksini tapmışdır:

1. “Bakı 2015: Birinci Avropa Oyunları” - ikitərəfli qələbə formulu //GEO STRATEGİYA” jurnalı, may-iyun 2016, №3, s.19-21.
2. İlham Əliyev – Müasir demokratik siyasi lider obrazı // “Aspoliqraf 2016”: DİA, Heydər Əliyev ideyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları, s. 3-10
3. Azərbaycanın Xəzərin beynəlxalq hüquqi statusuna yanaşmasının geosiyasi aspekti //“GEO STRATEGİYA” jurnalı, noyabr-dekabr 2016, № 6, s. 26-30.
4.Qloballaşma dövrundə Xəzərin enerji ehtiyatları ilə geosiyasi maraqların qarşılıqlı əlaqəsi siyasi kontekstdə // “Təhsil 2017”: DİA, Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ Dövlət İdarəçiliyi islahat-

ları mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları, s. 273-286

5. Xəzər dənizi enerji ehtiyatı mənbəyi kimi regionun siyasi-iqtisadi maraq dairəsində // "GEO STRATEGİYA" jurnalı, yanvar-fevral 2017, № 1, s. 27-31.
6. Xəzər hövzəsinin geoiqtisadi xarakteristikasına siyasi nəzəri baxış // GEO STRATEGİYA" jurnalı, № 2, mart-aprel 2017, s. 30-33.
7. Müasir beynəlxalq münasibətlər sistemində Xəzər hövzəsi enerji mənbələrin rolu// Dövlət İdarəçilik Akademiyası," Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə", 2017, № 1, s. 248-256
8. Геополитический аспект подхода Азербайджана к международно-правовому статусу Каспийского моря // "Politicus" науковый журнал, Одесса-2017, № 1, s. 57-61

**Руфиз Рахим оглы Гонагов**

# ЭНЕРГЕТИЧЕСКИЕ ЗАПАСЫ КАСПИЙСКОГО БАССЕЙНА И ИХ РОЛЬ В ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ЕВРОПЫ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, шести параграфов, заключения и списка использованной литературы.

В первой главе – «Углеводородные запасы Каспийского бассейна и современная энергетическая безопасность», дается историческая, географическая и политическая характеристика объекта исследования, изучается роль энергетических запасов Каспийского бассейна в регионе и международных отношениях. В этом контексте автор выражает свое отношение к научно-теоретическим анализам международных политических отношений, доказывает важную роль энергетических запасов Каспия в энергетической безопасности региона и Европы.

Во второй главе – «Нефтегазовые трубопроводы Каспийского бассейна и политика диверсификации энергетического экспорта Азербайджана анализируется политическая значимость существующих нефтегазовых трубопроводов Каспийского бассейна для Азербайджана, изучается влияние существующих энергетических запасов страны на европейскую политику энергетической безопасности.

В заключении подводятся итоги, на основе сделанных обобщений формулируются предложения и рекомендации теоретического и практического характера.

Автор приходит к выводу, что Азербайджан, являясь среди стран Каспийского бассейна наиболее значимой для Европы страной, должен придерживаться курса развития отношений, регулириуемых равноправным, взаимным партнерским сотрудничеством и в вопросах евро-

пейской энергетической безопасности вместе с другими странами этого региона демонстрировать совместную международную позицию.

**Rufiz Rahim Gonagov**

# ENERGY RESOURCES OF CASPIAN BASIN AND EU "S ENERGY SECURITY

## SUMMARY

The Dissertation consists of introduction, two chapters, six half-chapters, a conclusion and a list of used literatures.

In the first chapter, titled "Hydrocarbon Resources of The Caspian Basin and Modern Energy Safety" gives geographical political characteristics and history of the research object, learnes the role of energy resources of the Caspian Basin in the region and international relations. In this context the auther expresses his attitude to the scientific and theoretical analysis of international political relations, proves the important role of the Resources of Caspian energy in the energy safety of the Region and Europe. In the second chapter, titled "Oil and Gas Pipelines of the Caspian Basin and the Policy of Diversification of Energy Export of Azerbaijan" is analyzis the political significance existing oil and gas pipelines in the Caspian basin, learnes the impact of the country's exiting energy resources on the policy of the European energy safety.

On the basis of generalization, in the Conclusion section were given theoretical practical recommendations and proposals. Azerbaijan continues the course of development of relations regulated by equal and mutual co-operation attitudes as a more important state for Europe among the Caspian Basin countries.

Sifariş № 6. Tirajı 100 nüsxə

Azərbaycan Milli Elmlər Akademiyası
Geologiya və Geofizika İnstitutunun mətbəəsi.
Bakı, H.Cavid pr. 119, Tel.: 539-39-72

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**
**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**РУФИЗ РАХИМ ОГЛЫ ГОНАГОВ**

# ЭНЕРГЕТИЧЕСКИЕ ЗАПАСЫ КАСПИЙСКОГО БАССЕЙНА И ИХ РОЛЬ В ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ ЕВРОПЫ

Специальность: 5901.01 – Международные отношения

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по политическим наукам

**БАКУ – 2018**